# Ağ göyərçinə dönən şəhid ruhu

Fazil bəylə Nailə xanım dağlar qoynunda qərar tutmuş Gədəbəy rayonunun Şınıx mahalının Qaravəlilər kəndində doğulub, boya-başa çatmışdılar. Bir-birlərinin halına, xasiyyətinə yaxşı bələd idilər. Fazil həm də 1-ci Qarabağ müharibəsində iştirak etmişdi, onun bu vətənpərvərliyi, qorxmazlığı da Nailə xanımın nəzərində bir mərtəbə də onu ucaltmışdı. Bir-birlərinə könül vermişdilər, əhd-peyman bağlamışdılar. 1995-ci ilin sentyabrında - bir payız günü ağsaqqalların, ağbirçəklərin xeyir-duası ilə Qaravəlilər kəndində toyları oldu. Bütün kənd əhli toyda iştirak etdi, bəylə gəlinə xoşbəxtlik arzuladı. Uca Tanrı da bu alqışı, xeyir-duanı eşitdi. 1997-ci ilin 2 dekabrında oğul övladları dünyaya gəldi, adını Loğman qoydular. 2001-ci ilin 20 fevralında isə ailənin ikinci oğul övladı dünyaya gəldi. Kamran qoydular körpənin adını, taleyini Allaha ismarladılar. Beləcə, gənc ailəyə Allah-təala bir-birindən gözəl iki oğul payı bəxş etdi.

Xoşbəxt, bəxtəvər bir ailə idilər. Gədəbəydən Bakıya köçdüklərindən, uşaqlar da Bakı şəhərində orta təhsil aldılar. Kamran 2007-ci ildə Zabrat qəsəbəsindəki 192 saylı tam orta məktəbin 1-ci sinfinə getdi. 2016-cı ildə 9-cu sinfi bitirib, çilingərlik ixtisası üzrə 14 saylı texniki peşə məktəbinə qəbul oldu.

Baxmayaraq ki, ailə Bakı şəhərində yaşayırdı, amma Kamran elə-obaya, dədə-baba yurduna çox bağlı olduğundan, hər il yay vaxtlarında doğulduğu kəndə gələrdi. Axı Kamran həm də ailənin sonbeşiyi sayılırdı. Sonbeşik isə xalqımızın təfəkküründə "yurda keşik" - yəni ata-baba ocağının keşikçisi, davamçısı hesab olunur. Amma Kamranın yurd sevgisi yalnız doğulduğu kəndi, rayonu sevməklə məhdudlaşmırdı, onun könül dünyasında böyük Azərbaycan - yəni bütöv vətən sevgisi vardı.

Vətən sevgisi həm də Kamranın canına - ruhuna nəsildən-kökdən gələn bir miras idi. Belə ki, atası Fazil kişi də Qarabağ veteranı idi. Anası Nailə xanımın atası - yəni ana babası olan Həsənov Vidadi Hümbət oğlu da 1-ci Qarabağ müharibəsində Murovda döyüşüb. Başkəndin ermənilərdən alınmasında fəal iştirak edib, bir sıra döyüşlərin iştirakçısı olub (ordu sıralarından tərxis olunandan xeyli sonra dünyasını dəyişib).

Bundan başqa, Kamranın ata babası Qasımov Vəli Nasir oğlu da 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak edib və həlak olub. Onu da qeyd edim ki, Kamrangilin kəndi olan Qaravəlilərin ərazisi ermənilərə yaxın, sərhəd bölgəsidir və hər an marığa yatan mənfur düşmən bu kəndi atəş altında saxlayıb. Kamranın əmisi Azərbaycan dili və ədəbiyyat müəllimi olmuş Qasımov Faiq İsrafil oğlu hələ 1994-cü ildə Qaravəlilər kəndi yaxınlığındakı Palıdlı postunda keşik çəkərkən namərd ermənilərin gülləsinə tuş gəlib, şəhid olub. Kamranın əmisi oğlu Qasımov çilingir Mayil oğlu 14 yaşında ikən səhər-səhər kəndin mal-qarasını örüşə apararkən, kəmfürsət ermənilər Xonça tala deyilən yerdə avtomatdan atəş açaraq bədənini dəlmə-deşik edib öldürmüşdülər.

Kamranın bibisi Zərifənin qızı - təxminən 20-21 yaşlarında olan Ocaqverdiyeva Turac Qulu qızı alçaq düşmənlərimizin basdırdığı minaya düşüb şəhid olub. Deməli, Kamranı kəndə, el-obaya bağlayan cəhətlər həm də strateji baxımdan təhlükəli mövqedə yerləşən və uğrunda əzizlərinin can qoyduqları torpaq müqəddəsliyi ilə bağlı idi. Dörd nəfər can qohumu - qan qohumu bu doğma ata-bala yurdu uğrunda, vətən yolunda can qoyub getmişdi.

Kamran Fazil oğlu Qasımov 23 iyul 2019-cu ildə Gədəbəy rayon hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılır. O, 2016-cı ilin şanlı Aprel döyüşləri nəticəsində işğaldan azad olunmuş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində - Lələtəpə yüksəkliyində hərbi xidmətə başlayır. Döyüş silahlarının, xüsusən də pulemyotun sirlərinə dərindən yiyələnir.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşlərə atılan Kamran baş atıcı kimi öz pulemyotu ilə xeyli sayda düşmənin canlı qüvvəsini biçib-tökür. Hətta döyüşlərin birində mühasirəyə düşən 62 hərbçimizi düşdükləri çətin vəziyyətdən xilas etməkdə müstəsna xidmətlər göstərir. Füzulidən Xocavəndə qədər qəhrəman döyüş yolu keçən Kamranın son döyüşü oktyabrın 26-da olur. Düşmənin atdığı tank əleyhinə minamyot hücumu nəticəsində onun döyüşdüyü 11 nəfərlik dəstə, hamısı manqa komandiri ilə bir yerdə şəhid olur. Həmin vaxt Kamran baş nahiyəsindən ağır yaralanıb tanınmaz hala düşür. Ona görə də həkimlərin test-analizləri nəticəsində kimliyi müəyyənləşdirildikdən sonra - noyabrın 26-da, atasının ad günündə Sabunçu rayonunun 1-ci Zabrat qəsəbəsində Şəhidlər Xiyabanında torpağa tapşırılır. Onun hərbi şücaətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirirlir, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə və "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni ilə təltif olunur.




Kamranın anası Nailə xanımla söhbət zamanı deyir ki, çox ailəcanlı, ağıllı uşaq idi. Yaşı az olsa da, yaşından böyük uşax idi. Dərsdən çıxandan sonra iş tapır, evi də dolandırırdı. Hərdən taytuşları ilə futbol oynamağa da gedərdi. Çox şən idi. Ata anasına çox bağlı idi...

Nailə xanım bir neçə maraqlı qeyri-adi məqamlardan da danışdı. Dedi ki, döyüşlər gedən ərəfələr idi. Gördüm bir ağ göyərçin gəlib özünü bərkdən bizim pəncərəmizə vurdu, başından ağır yaralandı. Saat 6-7 arası olardı. Qaçdım göyərçini əlimə götürdüm, istədim ki, su verəm, köməklik edib sağaldam. Ancaq göyərçin əlimdə can verdi. Onda kürəyimin arasından elə bil ki, od qopdu. İçimdən çox narahat duyğu keçdi. Ürəyimə damdı ki, balamın başında nəsə var. Həmin gün Kamrangilin dəstəsi minomyot atəşi nəticəsində şəhid olmuşdu. Kamran da başından ölümcül yaralanıb şəhid olmuşdu. Kamranın anası bir maraqlı məqamı da danışdı. Dedi ki, Kamran şəhid olandan sonra müşahidə edib görürəm ki, hər səhər azanında bir ağ göyərçin gəlib üzü qibləyə sarı durur, azan qurtarandan sonra çıxıb gedir.

Nailə xanım bir qeyri-adi epizod da danışdı. Dedi ki, "Kamranın ad günüydü, ehsan verirdik. Bir də gördük ki, bir ağ göyərçin gəlib navesin (çovustanın) altına girdi. Sonra da yavaş-yavaş gəlib pəncərədən Kamran üçün düzəltdiyimiz otağa girdi, Kamranın şəkillərinə baxa-baxa otağı gəzib-dolandı. Girdiyi pəncərədən də çıxıb navesin altına qayıtdı. 2 gün navesin altında qalandan sonra çıxıb getdi"...

Şəhid anasının bu müşahidələri bir daha (şəhid) ruhun(un) ölməzliyinə ilahi işarələrdir. Göyərçin sülh quşu sayılır. Kamran da ölkəmizin əmin-amanlığı və torpaqlarımızın işğaçılardan təmizlənib, dinc-rahat nəfəs almağımızın naminə cihada qalxıb, canını vətən uğrunda fəda etdi. Ruhu ağ göyərçin donunda cənnət məläyinə dönüb bizləri salamlayır, mən ölməmişəm, - deyir.

***Şakir ALBALIYEV***

Kredo .- 2023.- 14 iyun.- S.15.